

Bakıda “Baku World Challenge FIA GT” beynəlxalq avtomobil yarışlarının final yürüşünün birinci mərhələsi keçirilib.

Bayıl ərazisində keçirilən yarışla əlaqədar Azneft meydanından Bayıl qəsəbəsinə hərəkət məhdudlaşdırılıb.

Yarış yerinə tamaşaçıları Azneft meydanından xüsusi avtobuslar aparıb.

Qeyd edək ki, yarışda “GT3”-ün 14 beynəlxalq komandası və 30 avtomobili, həmçinin Tarixi “Formula 1” yarışının 15 avtomobili ilə təşkil olunub.

Yarışın mükafat fondu 175 min avro təşkil edir. Sabah sözügedən yarışın əsas final mərhələsi

keçiriləcək.